**UOT 94(479.24)**
**https://doi.org/10.59849/2218-4783.2026.1.36**

# SƏFƏVİLƏR DÖVRÜNDƏ NAXÇIVANDA TƏHSİL VƏ ELMİ MÜHİT

# EDUCATION AND THE SCHOLARLY ENVIRONMENT IN NAKHCHIVAN DURING THE SAFAVID PERIOD

**İlhami ƏLİYEV***

## XÜLASƏ

Məqalədə XVI-XVIII əsrin əvvəllərində Naxçıvanda təhsil və elmi mühitin vəziyyəti araşdırılmışdır. Naxçıvanın Səfəvilər dövründə mədəni və elmi mərkəz kimi rolundan bəhs edilmiş, bölgədəki təhsil sisteminin strukturu, məktəb və mədrəsələrdə öyrədilən elm sahələri, dini və dünyəvi komponentlər arasındakı balans, regional elmi əlaqələr təhlil edilmişdir. Həmçinin, araşdırmalardan aydın olmuşdur ki, bəhs edilən dövrdə digər Azərbaycan bölgələrində olduğu kimi, Naxçıvanda da təhsil sistemi əsasən dini xarakter daşısa da, tibb, riyaziyyat, astronomiya, məntiq, fəlsəfə və filologiya kimi dünyəvi elmləri də əhatə edirdi. Mədrəsələr həm dini biliklərin dərinləşdirilməsi, həm də intellektual bacarıqların inkişafı üçün mühüm rol oynamışdır. Bu dövrdə Naxçıvanın Təbriz, Ərdəbil, Qəzvin, İsfahan və s. kimi Səfəvi elmi mərkəzləri ilə əlaqələri yerli təhsil mühitinin zənginləşməsinə və bilik mübadiləsinin təmin olunmasına imkan yaratmışdır. Məqalədə həmçinin, mollalar və müdərrislərin təhsil, dini, hüquqi və ictimai sahələrdəki rolu vurğulanmış, onların Naxçıvanda elm və təhsilin davamlı inkişafını təmin edən əsas qüvvə olduğu qeyd olunmuşdur.

Aparılan araşdırmalar nəticəsində XVI-XVIII əsrin əvvəllərində Naxçıvanda elm və təhsilin inkişaf etdiyi və bölgənin Səfəvilər dövləti ərazisində mühüm elmi mərkəzlərdən biri olduğu aydın olmuşdur.

**Açar sözlər:** *Naxçıvan, Səfəvilər dövrü, təhsil, elm, dini elmlər, dünyəvi elmlər, elm mərkəzləri.*

## ABSTRACT

This article investigates the state of education and the scholarly environment in Nakhchivan during the 16th to early 18th centuries. It discusses Nakhchivan's role as a cultural and scientific center under the Safavids, analyzing the structure of the regional educational system, the fields of study taught in schools and madrasas, the balance between religious and secular components, and regional scholarly connections. The research reveals that, during this period – as in other regions of Azerbaijan – the educational system in Nakhchivan was primarily religious in character, yet it also encompassed secular sciences such as medicine, mathematics, astronomy, logic, philosophy and philology. Madrasas played a crucial role both in deepening religious knowledge and in developing intellectual skills. Nakhchivan's ties with Safavid scientific centers such as Tabriz, Ardabil, Qazvin and Isfahan facilitated the enrichment of the local educational environment and enabled scholarly exchange. The article also highlights the role of mollas and mudarrises in education, religion, law and social affairs, noting that they constituted the main force ensuring the continuous development of science and education in Nakhchivan.

The research demonstrates that science and education flourished in Nakhchivan during the 16th to early 18th centuries, and that the region was one of the key scholarly centers within the Safavid state.

**Keywords:** *Nakhchivan, Safavid period, education, science, religious sciences, secular sciences, scientific centers.*

## GİRİŞ

Azərbaycan Səfəvilər dövlətinin yaranmasından sonra mərkəzləşmiş siyasi qurumun möhkəmlənməsi ilə ölkənin sosial-iqtisadi həyatında baş vermiş inkişaf mədəniyyətin dirçəlişinə də müsbət təsir göstərdi. Gəncə, Təbriz, Şamaxı, Marağa, Ərdəbil və s. şəhərlər bu dövrün mühüm mədəniyyət mərkəzlərinə çevrildi.

* AMEA Naxçıvan Bölməsi, e-mail: ilhamialiyev@yahoo.com.tr
ORCİD: 0000-0002-7079-4737

Azərbaycan Səfəvilər dövlətində təhsil və elm hakim təbəqənin diqqət yetirdiyi və önəm verdiyi əsas sahələrdən biri olmuşdur. Bu birinci növbədə Səfəvilərin hakim ideologiyasına çevrilmiş, yeni On İki İmam şiəliyinin oturuşması və yayılmasına kömək edə biləcək kadrların hazırlanması ilə bağlı idi. Digər tərəfdən, şiəlik təliminin ideya əsaslarının təkmilləşdirilməsi və yeni müddəalarla zənginləşdirilməsi dini-ideoloji mübarizələrdə savadlı adamların olmasını tələb edirdi. Ona görə də Səfəvi hakim dairələri bu cür problemlərin həllinə kömək edə biləcək, yeni təhsil müəssisələrinin açılmasında və savadlı kadrların yetişdirilməsində maraqlı idilər. İkincisi, ölkənin ictimai-siyasi və təsərrüfat-mədəni həyatının müxtəlif sahələri ilə bağlı yeni kadrların hazırlanması da Səfəvilər dövlətinin gündəmində olan məsələlərdən idi. Çünki getdikcə mərkəzi dövlət aparatının güclənməsi, bölgələrlə birbaşa əlaqələrin qurulması, ölkənin beynəlxalq əlaqələrinin inkişaf etməsi və bütövlükdə məmur aparatının böyüməsi yeni savadlı kadrlar ordusunun olmasını tələb edirdi [Əhməd, 2022, s. 691]. Buna görə də şah hakimiyyəti idarəçiliyin yerinə yetirilməsində elm və təhsilin inkişafının mühüm əhəmiyyətini nəzərə alaraq bu sahəyə hər zaman diqqətlə yanaşırdı.

Səfəvilər dövründə bir sıra Azərbaycan bölgələri kimi, Naxçıvan da elm və təhsilin inkişafında mühüm mərkəzlərindən biri kimi tanınırdı. Bu dövrdə Naxçıvan bölgəsində təhsil sistemi klassik Şərq-İslam təhsil ənənələri çərçivəsində formalaşaraq əsasən dini xarakter daşıyırdı. Bu zaman bölgədə müasir anlamda dünyəvi təhsil müəssisələrinin mövcudluğu müşahidə olunmasa da, təhsilin müxtəlif formaları məscidlər, mədrəsələr və dini-elmi dairələr vasitəsilə həyata keçirilirdi [Naxçıvan tarixi I c., 2013, s. 318]. Sözügedən təhsil formaları regionun siyasi, sosial və dini xüsusiyyətlərinə uyğun şəkildə təşəkkül tapmışdır.

Naxçıvanda təhsilin əsas forması məscid və onlara bitişik mədrəsələrdə aparılan tədris idi. Məscidlər yalnız ibadət yeri deyil, eyni zamanda ilkin təhsil ocağı kimi fəaliyyət göstərir, burada Quran, yazıb-oxuma bacarıqları və dini biliklərin əsasları öyrədilirdi.

Qeyd edək ki, XVI əsrdə Azərbaycanda təhsilin başlıca mərkəzləri dini təşkilatlar olan məscidlər idi. Orta əsrlərdə fəaliyyət göstərən məscidləri yalnız dini təbliğat mərkəzi kimi qiymətləndirmək olmaz. Bu haqda akademik V.V.Bartold yazırdı ki, Came məscidləri yalnız ibadət yeri olmayıb, eyni zamanda dövlət yığıncaqlarının və ictimaiyyətin toplanış yeri idi. Orada dövlət xəzinəsi saxlanılır, müəllimlər tərəfindən məruzələr oxunur, məhkəmə və ictimai işlər aparılırdı [Бартольд, 1963, c. 205]. Səfəvilər dövründə Azərbaycanın Bakı, Naxçıvan, Təbriz, Qəzvin, Ərdəbil, Xoy, Şamaxı, Gəncə və s. şəhərlərində, bir çox kəndlərdə məscidlərin nəzdində fəaliyyət göstərən məktəblər və mədrəsələr ruhani dairələr tərəfindən təşkil edilmiş qapalı təhsil müəssisələri deyildi. Bu sistem dövrün elm sahələrinin (coğrafiya, tarix, təbabət, riyaziyyat, astronomiya, triqonometriya, ilahiyyat, poetika və s.) tədrisi ilə də məşğul olurdu. Rəsmi təhsil sistemindən başqa fərdi təhsil sistemi də mövcud idi. Ruhanilər, dövrün elmi biliklərində arif olan şəxslər valideynlərin arzusu ilə fərdi məşğələlər də keçirirdilər. Səfəvilərin dövlət sarayının nəzdində hakim dairələrə məxsus olan uşaqların və gənclərin təlim-tərbiyəsi üçün xüsusi təhsil sistemi fəaliyyət göstərirdi. Saray nəzdində fəaliyyət göstərən təhsil müəssisələrində ərəb dilinin incəlikləri, Quran, bir sıra dünyəvi elmlər, poetikanın sirləri kimi mühüm biliklər və sənət sahələri öyrədilirdi [Qasımov, 2002, s. 91].

## SƏFƏVİLƏR DÖVRÜNDƏ ÖLKƏDƏ TƏHSİL İKİPİLLƏLİ XARAKTER DAŞIYIRDI

Birinci mərhələdə təhsil alanlara ibtidai biliklər verilirdi. Amerikalı şərqşünas Georgi Makdisi özünün "İslamın klassik çağında və xristian Qərbində humanitar elmlər" adlı əsərində bildirirdi ki, məktəb və ya küttab, sadəcə, ilk dərəcə təhsil verən məkanlar idilər [Maksidi, 2009, s. 58]. Hələ Abbasilər dövründə İslam şərqində küttab adı ilə yaranan ibtidai təhsil müəssisələri Səlcuqlar, Elxanilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər dövründə məhəllə məktəbləri kimi, "məktəbi ibtidaiyə" adı ilə də tanınırdı. Bu məktəblərdə şagirdlər oxuma və yazma kimi vərdişlərlə yiyələnsə də, başlıca məqsəd Quranın öyrənilməsi və dini biliklərin əldə edilməsinə xidmət edirdi. Ərəbcə "kə-tə-

bə" kökündən yaranan məktəb sözü yazı yazmanın öyrənildiyi yer deməkdir. Məktəblər bir qayda olaraq məhəllələrdə olan məscidlərin nəzdində fəaliyyət göstərirdi. Bu faktı 1637-1638-ci illərdə Səfəvilər dövləti ərazisində səfərdə olmuş alman alimi Adam Oleari də təsdiqləyir. O yazırdı ki, insanların ibadət etdiyi məscid və məbədlər, həm də onların məktəbləri vəzifəsini yerinə yetirirdi. Hər məhəllə və küçədə məscid, hər məsciddə isə məktəb və ya mədrəsə var idi [Oleari, 1870, s. 809].

Səfəvilər dönəmində uşaqlar məktəbə əsasən 4-10 yaşları arasında gedirdilər. Ancaq bu yaşlarda ibtidai təhsil ala bilməyənlər sonradan, istədikləri yaşda ibtidai məktəblərə gedə bilərdilər. Məsələn, Yaqut əl-Həməvi kimi tanınmış alim böyük yaşlarında məktəbə getmişdi [Əkbər, 2018, s. 110]. Məktəblərdə təhsil müddəti maksimum 10-11 il təşkil edirdi. Ancaq şagirdlərin böyük əksəriyyəti təhsilini 9-10 il davam etdirdikdən sonra məktəbdən ayrılırdılar. Məktəblərə şagirdlərin qəbulu il boyu davam edirdi [Əhməd, 2022, s. 694]. Təxminən 15-20 yaş arasında bu məktəbləri bitirənlər dövrün orta təhsillilləri olurdular.

Səfəvilərin hakimiyyəti illərində Naxçıvan məktəblərində təhsil əvvəlki vaxtlarda olduğu kimi aparılır, ibtidai təhsilin başlanğıcında şagirdlərə əlifba öyrədilir, İslamın müqəddəs kitabı Qurani-Kərimdən müəyyən kiçik həcmli surələr əzbərlədilirdi. Məktəblərdə həm də Fəridəddin Əttarın "Nəsihətnamə", Sədi Şirazinin "Gülüstan", Übeyd Zavaninin "Sican və pişik" əsərlərindən, həmçinin Hafizin "Divan"ından parçalar tədris olunurdu [Naxçıvan tarixi I c., 2013, s. 318]. Bütün bunlar şagirdlərin təhsil vərdişlərinə yiyələnməklə, getdikcə savad və dünyagörüşülərinin inkişaf etdirilməsinə imkan yaradırdı. Daha geniş, əhatəli və dərin biliklər mədrəsələrdə verilirdi.

## TƏHSİLİN İKİNCİ PİLLƏSİNDƏ MƏDRƏSƏLƏRİN VERDİYİ ALİ TƏHSİL SƏVİYYƏSİ DAYANIRDI

Azərbaycan da daxil olmaqla, İslam dünyasında orta əsrlərdə mədrəsələr daha sistemli və dərin dini və dünyəvi elmi biliklərin verildiyi təhsil müəssisələri olmuşdur. Bu təhsil ocaqlarında Quran elmləri, fiqh, hədis, ərəb dili qrammatikası (sərf və nəhv), məntiq və fəlsəfənin ilkin əsasları tədris edilirdi. Mədrəsələr, həmçinin dini elmlərlə yanaşı, riyaziyyat, astronomiya, tibb, ədəbiyyat kimi fənlərin tədris olunduğu mərkəzlər idilər.

Səfəvilər dövləti yarandığı vaxtdan mədrəsələrinin sayı çoxaldılmağa başladı. Mədrəsə təhsilinin əsası Səfəvilər dövlətinin ideoloji xətti ilə sıx bağlı idi [Zaryab, 1997, p. 184]. Bu zaman dövlətin idarəçilik prinsiplərinin həyata keçirilməsində bu mədrəsələrin yetişdirdiyi mütəxəssislər daha çox önəm daşıyırdı. Təsadüfi deyil ki, bu dövrdə Naxçıvan daxil olmaqla Azərbaycanın bir çox bölgələrində – Gəncə, Şamaxı, Beyləqan, Təbriz, Marağa, Zəncan, Mərənd, Xoy və s. yerlərdə mədrəsələr fəaliyyət göstərirdi [Əliyeva, 2015, s. 67-86]. Tacəddin şah Əlişah mədrəsəsi, Rəşidəddinin oğlu Qiyasəddin Məhəmmədin Qiyasiyyə mədrəsəsi, Əmir Şeyx Həsən Cəlayiri mədrəsəsi, Şeyx Üveys mədrəsəsi, Sultan Əhməd Cəlayiri mədrəsəsi, Sahənşahın arvadı Xədicə Bəyimin tikdirdiyi Müzəffəriyyə və Bəyim mədrəsələri, şair Xaqaninin əmisi Qafiyəddin Ömər ibn Osman tərəfindən açılmış "Mədrəseyi-tibb" və s. mədrəsələri bəhs edilən dövrdə Azərbaycanda mədrəsə təhsili verən əsas məktəblərdən idilər [Nəcəf, 2018, s. 111]. Bu zaman Şiə məzhəbi rəsmi dövlət dini olduğundan fiqh, dini hüquq sahələrinə xüsusi diqqət yetirilmiş, bu isə bölgədə dini təhsilin mövqeyini daha da gücləndirmişdir. Naxçıvan mədrəsələri də bu ümumi Səfəvi təhsil modelinin regional təzahürü kimi çıxış etmişdir.

Naxçıvan şəhərinin XVI-XVII yüzilliklər tarixindən bəhs edən tarixçi-alim R.Məmmədov şəhərdə yaşayan ali ruhani təbəqələrini sadalayarkən onların içərisində müdərrisləri xüsusi olaraq qeyd etmişdir [Məmmədov, 1973, s. 174]. Şəhərdə müdərrislərin – mədrəsə müəllimlərinin yaşaması bəhs edilən dövrdə burada mədrəsələrin geniş fəaliyyətindən xəbər verir. Həmçinin, adlarının şeyxülislam, qazı, üləma, axund, cümə məscidinin imamları, vaiz, xanəgah, zaviyə şeyxləri və baş-

qa bu kimi nüfuzlu şəxslərlə birlikdə sadalanması müdərrislərin şəhərin ictimai-siyasi həyatında mühüm rol oynadıqlarını, onların seçilib-sayılan adamlardan olduqlarını göstərir.

Səfəvilər dövründə təkcə Naxçıvan şəhərində deyil, bölgənin digər şəhərlərində də mədrəsələr fəaliyyət göstərirdi. Həmin dövrdə fəaliyyət göstərən ən məşhur mədrəsələrdən biri də Ordubad şəhərində olan mədrəsə idi. Zəmanəsinin nüfuzlu təhsil ocaqlarından olan bu mədrəsə fəaliyyət göstərdiyi müddətdə daim Azərbaycan feodal hakimlərinin, dövlət aparatında mühüm vəzifə tutan məmurların, görkəmli şəxsiyyətlərin diqqət və qayğısı ilə əhatə olunmuşdur. Bu mədrəsə Naxçıvan bölgəsinin, ümumiyyətlə, Azərbaycanın hüdudlarından kənarda belə məşhur olmuş, qonşu ölkələrdən də bura təhsil almağa gəlmişlər. Onun yetirmələri Təbriz, Bağdad, Nəcəf və başqa bu kimi elm, təhsil və mədəniyyət mərkəzlərində öz təhsillərini davam etdirərək tanınmış şəxsiyyətlərə çevrilmiş, Azərbaycanda və müsəlman şərqinin bir sıra ölkələrində yaşayıb fəaliyyət göstərmişlər [Tərbiyət, 1987].

Mənsub olduğu Came məscidinin yanında təsis olunan və özünün vəqfləri hesabına maliyyələşən Ordubad mədrəsəsi iki mərtəbəli binada yerləşirdi. Dərs otaqlarından, tələbələrin yaşaması üçün xüsusi hücrələrdən və təsərrüfat binalarından ibarət olan bu tikili tipik mədrəsə binasıdır. Tədqiqatçıların fikrincə bu mədrəsə binası Şimali Azərbaycanda zəmanəmizədək salamat vəziyyətdə gəlib çatmış yeganə klassik mədrəsə nümunəsidir [Усейнов, 1963, с. 266].

Ordubad şəhəri orta əsrlər zamanı Müsəlman Şərqinin digər iri elm və mədəniyyət mərkəzləri ilə müqayisədə çox inkişaf etməsə də, burada fəaliyyət göstərən mədrəsə Azərbaycanın ən mühüm mədəniyyət və təhsil müəssisələrindən biri olmuş, Səfəvilərin dövlət aparatının yüksək vəzifəli adamları tərəfindən himayə və idarə olunmuşdur. Böyük əhəmiyyəti nəzərə alınaraq mədrəsə binası hicri 1126-cı ildə (miladi 1714) bərpa edilmişdir.

Bu illər Səfəvilər dövləti üçün ən ağır dövrlərdən biri idi. Belə ki, XVII əsrin sonlarında yaranmış ağır vəziyyət XVIII yüzilliyin əvvəllərində də davam etmiş, ölkəni ağır iqtisadi və siyasi böhran bürümüşdü. Dövlət aparatının zəifləməsindən istifadə edən bəzi bəylərbəyilər və iri feodallar müstəqilliyə can ataraq şaha tabe olmaqdan boyun qaçırırdılar. Belə böhranlı bir zamanda, dövlətin maliyyə vəziyyətini düzəltməkdən ötrü pul kəsmək üçün hətta Ərdəbildəki Şeyx Səfi məqbərəsindəki qiymətli əşyaların əridildiyi bir dövrdə Ordubad mədrəsəsinin bərpa etdirilməsi və bu işin dövlət səviyyəsində aparılması Səfəvi hökmdarlarının təhsilə nə qədər böyük diqqət və qayğı ilə yanaşdığını göstərən ən sanballı faktlardandır.

“Naxçıvan sancağının müfəssəl dəftəri”ndə əks olunan məlumatlardan aydın olur ki, 1727-ci ildə, yəni “Dəftər” tərtib olunduğu zaman mədrəsə şəhərdəki 30 dükanın hərəsindən ayda 15 ağca, Təknə hamamı gəlirinin yarısını, yəni 9000 ağca, Ordubadda olan iskələnin gəlirindən nağd olaraq 4800 ağca vəqf olaraq alırmış [Naxçıvan sancağının müfəssəl dəftəri, 2001, s. 239]. “Dəftər”də mədrəsənin vəqflərindən əldə olunan gəlirin mədrəsənin məsrəfləri üçün ayrılmış hissəsi də öz əksini tapmışdır. Belə ki, bu gəlirdən müdərris üçün ayda 30 ağca, mütəvəllilik üçün 12 ağça, qapıçı üçün 6 ağca maaş verilirmiş. Burada bir maraqlı məqam diqqəti cəlb edir ki, vəqfin gəlirindən hər tələbə üçün ayda 5 ağca verilməsidir.

Ordubad mədrəsəsi dövrünün inkişaf etmiş və məşhur təhsil müəssisələrindən olmaq etibarilə Yaxın və Orta Şərqin bir sıra mədəniyyət mərkəzləri, orada olan təhsil müəssisələri ilə sıx elmi-pedaqoji əlaqələrdə olmuş və həmin mədrəsələrin təcrübəsindən (məsələn, tələbələrə aylıq pul vermək) istifadə etmişdir. “Dəftər”də mədrəsənin gəlirlərinin artıq qalan hissəsinin təyinatı da göstərilmişdir. Nəzərdə tutulmuşdur ki, həmin vəsaiti mütəvəlli qoruyub saxlasın və gərək olduqca mədrəsənin və onun vəqfinə aid olan tikililərin təmirinə sərf eləsin [Naxçıvan sancağının müfəssəl dəftəri, 2001, s. 239].

Ordubad şəhərindəki Zəhir əd-Dövlə Məhəmməd İbrahim mədrəsəsi bəhs edilən dövrdə nəinki Naxçıvan bölgəsində, eyni zamanda Azərbaycanda əhəmiyyətli tədris müəssisələrindən biri olmuşdur. Bölgə ərazisində mədrəsə təhsilinin belə inkişaf etməsinin nəticəsidir ki, ilk təhsilini Nax-

çıvan bölgəsindəki mədrəsələrdə almış və Səfəvilər dövründə səmərəli xidmətləri ilə layiqli ad-san qazanmış xəttat, münşi Ətiq Ordubadi, həkim İbrahim Naxçıvani, müdərris İbrahim Ordubadi, münşi Məhəmməd Ordubadi, Zeynalabdin Ordubadi, Naci Ordubadi, Qazı Məhhəmməd, Sadıq Ordubadi, Sayir Ordubadı, Hatəmbəy Etimadüddövlə, Xəlil Naxçıvani [Tərbiyət, 1987, s. 135, 165, 213, 223, 243, 248, 278, 289, 300, 364,], Mövlana Məhəmməd ibn İdris Naxçıvani, Qazi Sadiq Naxçıvani, Molla Əbül-Huda ibn Mahmud Naxçıvani [Nəsirov, 2011, s. 196 ] və başqaları kimi dövrünün tanınmış ziyalı mütəfəkkirləri, ictimai-siyasi xadimləri, ayrı-ayrı peşə sahibləri – həkimlər, müəllimlər, mühəndislər və s. Azərbaycanın sosial-iqtisadi və mədəni həyatının müxtəlif istiqamətlərində fəaliyyət göstərmişlər.

Bu dövrdə mədrəsə təhsili ilə yanaşı, Səfəvilər dövləti ərazisində digər bölgələrdə olduğu kimi, Naxçıvanda da fərdi və şifahi (nəqli) təhsil formaları da geniş yayılmışdır. Tanınmış mollalar, axundlar və müdərrislər tərəfindən evlərdə, kiçik dini dairələrdə, saray mühitində aparılan bu tədris üsulu müəllim-şagird münasibətləri əsasında qurulurdu. Fərdi və şifahi tədris üsulu biliklərin ötürülməsində mühüm rol oynamış, eyni zamanda dini-əxlaqi dəyərlərin formalaşmasına xidmət etmişdir. XVII əsrin birinci yarısında yaşamış müdərris İbrahim Ordubadi belə müəllimlərdən biri olmuşdur. O, Səfəvi sarayında 1627-1657-ci illərdə baş vəzir olmuş Nəvvab Cəfərxanın oğlanlarına dərs demiş, onların təlim-tərbiyəsində mühüm rol oynamışdır [Tərbiyət, 1987, s. 165]. Fərdi keçirilən dərslər hakim dairələrin övladlarının daha üstün təhsil almasını təmin etmək üçün həyata keçirilirdi. Bəhs edilən dövrdə mədrəsə təhsili səviyyəsində bilik qazandıran məktəblərdən biri də saray məktəbləri idi.

Artıq XI əsrdən etibarən Səlcuqlar, sonra isə Atabəylər dövründə Azərbaycanda bütün Şərqi İslam coğrafiyasında tanınan məktəblər, mədrəsələr, saray məktəbləri mövcud idi [Nəcəf, 2018, s. 111]. Səfəvilər dövləti sarayının nəzdində də xüsusisi məktəblər kimi fəaliyyət göstərmiş saray məktəbləri Osmanlı sarayı nəzdində olan divan və endərun adlanan məktəblərə bənzəyirdi. Burada bir sıra elmlərlə yanaşı hərb sənətinin sirlərinin öyrədilməsinə xüsusi diqqət yetirilirdi. Bu haqda tarix elmləri doktoru X.Qasımov "Azərbaycan mədəniyyəti (XVI-XVII əsrlər)" adlı monoqrafiyasında Səfəvi sarayının nəzdində fəaliyyət göstərən bu tipli məktəblərdən bəhs edərkən yazır ki, Səfəvilərin dövlət sarayının nəzdində hakim dairələrə məxsus olan uşaqların və gənclərin təlim-tərbiyəsi üçün xüsusi təhsil sistemi fəaliyyət göstərirdi. Saray nəzdində fəaliyyət göstərən təhsil müəssisələrində ərəb dilinin incəlikləri, Quran, bir sıra dünyəvi elmlər, poetikanın sirləri və müəyyən sənət sahələri öyrədilirdi. Səfəvi hökmdarlarının əksəriyyətinin dövrün bir çox biliklərində və incəsənət sahələrində arif olması, onların xəttatlıqla, şeirlər yazmaqla məşğul olması məhz bu təhsil sisteminin nəticəsi idi. Sarayda hərb sənətinin sirlərinə yiyələnməyə xüsusi fikir verilirdi [Qasımov, 2002, s. 91]. Səfəvi şahı I Təhmasibin hakimiyyəti illərindən etibarən saray nəzdində fəaliyyət göstərən məktəblərdə əsir götürülən (əsasən gürcü və çərkəz mənşəli) uşaqların təhsili ilə də məşğul olunmağa başlanıldı. Belə əsirlərin ən yaxşıları seçilir, onlara İslam mədəniyyəti, hərb sənəti və s. tədris olunurdu. Hətta bu zaman sarayın nəzdində olan hərəmxanadakı qızlara da ayrıca təhsil verilirdi. Burada hərəm qadınlarına müəllimlər praktik və nəzəri dərslər keçirdilər. Rəsm çəkmək, mahnı oxumaq, rəqs etmək, müxtəlif musiqi alətlərində ifa etmək və s. kimi təlimlərlə yanaşı, onlara ovçuluq, at minmək, ox atmaq və tüfəngdən istifadə edə bilmək kimi bacarıqlar da öyrədilirdi [Əhməd, 2022, s. 702-703].

Qeyd edək ki, saray məktəbləri Səfəvilər dövlətinin əsas mərkəzindəki saraydan başqa ölkə ərazisində onun bölündüyü iri inzibati ərazi vahidlərinin də mərkəzindəki saraylarda fəaliyyət göstərirdi. Məsələn, bəhs edilən dövrdə Naxçıvan ölkəsinin eyni adlı mərkəzində idarəçilik binalarının nəzdində mədrəsənin fəaliyyət göstərməsi [Əliyev, 2014, s. 115] bunu deməyə əsas verir. Əvvəldə də qeyd etdiyimiz kimi, bu dövrdə İbrahim Ordubadi kimi naxçıvanlı müdərrislər saray məktəblərində təhsil sahəsində çalışmış, onların yüksək elmi və pedaqoji ustalığı ali hakim dairələrin övladlarına bilik, savad verməyə qadir olmuşdur.

## XVI-XVIII ƏSRİN ƏVVƏLLƏRİNDƏ NAXÇIVANDA FƏALİYYƏT GÖSTƏRƏN MƏDRƏSƏLƏR

XVI-XVIII əsrin əvvəllərində Naxçıvanda fəaliyyət göstərən mədrəsələrdə tədris edilən elm sahələri klassik İslam təhsil sisteminin ümumi strukturu əsasında formalaşmışdır. Bu elm sahələri əsasən dini elmlər üzərində qurulsa da, mədrəsə təhsili yalnız teoloji biliklərlə məhdudlaşmamış, müxtəlif köməkçi və dünyəvi fənləri də əhatə etmişdir. Əvvəldə də qeyd etdiyimiz kimi, mədrəsə təhsilinin əsasını dini elmlər təşkil edirdi. Quran elmləri – təfsir və qiraət mədrəsə təhsili proqramının başlanğıc mərhələsində mühüm yer tuturdu. Bununla yanaşı, hədis elmi, xüsusilə, fiqh elminin tədrisi mədrəsələrin aparıcı istiqamətlərindən biri olmuşdur. Fiqh elminin tədrisi yalnız dini normaların öyrədilməsi ilə kifayətlənməmiş, eyni zamanda hüquqi düşüncənin formalaşmasına da xidmət etmişdir. Bu sahədə yetişən mütəxəssislər – qazı, axund, vaiz, molla və s. dini mütəxəssislər Naxçıvanın dini, ictimai-siyasi və hüquqi həyatında mühüm rol oynamışlar [Məmmədov, 1973, s. 174]. Dövrün belə savadlı təbəqəsi elm, təhsil, hüquq və s. sahələrdə əsas aparıcı ixtisas sahibləri olmuşlar.

Mədrəsələrdə tədris edilən əsas elm sahələrindən biri də filologiya, xüsusilə, ərəb dili və onun qrammatikası idi. Ərəb dilinin sərf və nəhv qaydalarının öyrədilməsi dini mətnlərin düzgün anlaşılması baxımından zəruri hesab edilirdi. Bununla yanaşı, fars dili də geniş şəkildə tədris edilirdi. Bəhs edilən dövrdən tədris prosesində fars dili tədricən ərəb dilini sıxışdırmağa başladı. Rəsmi dövlət sənədlərinin, poeziya nümunələrinin fars dilində yazılması təhsil proqramına da öz təsirini göstərirdi. XVI əsrdə məktəblərin və mədrəsələrin proqramında fars şairi Sədi Şirazinin "Gülüstan" və "Bustan" adlı ibrətamiz səciyyəli əsərləri əsas yerlərdən birini tuturdu [Qasımov, 2002, s. 93]. Ərəb və fars dillərinin tədrisi, Quranın mükəmməl şəkildə öyrədilməsi məktəblərin və mədrəsələrin tədris obyekti kimi XVII əsrdə də mərkəzi yeri tutmaqda idi [Рахмани, 1981, с. 200]. Filoloji sahədə mükəmməl təhsil mədrəsə tələbələrinin klassik İslam elmi irsinə çıxışını təmin etmiş, onların daha geniş elmi mühitə inteqrasiya etməsinə kömək etmişdir. Bu, Naxçıvan mədrəsələrinin regional çərçivəni aşan elmi əlaqələr qurmasına imkan yaratmışdır.

Bəhs edilən dövrdə Naxçıvan mədrəsələrində tədris olunan mühüm elm sahələrindən biri də məntiq və fəlsəfə olmuşdur. Məntiq elmi dini elmlərin dərin mənimsənilməsi üçün əsas metodoloji vasitə kimi qəbul edilmişdir. Bu dövrdə mədrəsə təhsilində Aristotelçi məntiqin İslam fəlsəfəsi çərçivəsində şərh olunmuş formalarına geniş yer verilmişdir. Fəlsəfə isə əsasən metafizika və etik məsələlər kontekstində tədris edilmişdir. Bu fənlər tələbələrin analitik düşünmə qabiliyyətinin inkişafına və dini məsələlərə rasional yanaşmanın formalaşmasına şərait yaratmışdır. XVI əsrdə Şərqdə (habelə Azərbaycanda) ən geniş yayılmış fəlsəfi təlim təsəvvüf idi. Bu anlayış "Teosofiya"nın (yunan sözünün) ərəb dilinə uyğunlaşdırılmış şəkli idi. Dinin aparıcı ictimai şüur forması olduğu bir mühitdə insanın kamilliyə doğru meyli, dünyanın mənfiliklərindən təmizlənmə yolu yalnız din məcrasında baş verə bilərdi. Təsəvvüf (sufilik) dini-ictimai-fəlsəfi cərəyanı insana özünütərbiyənin, təkmilləşmənin, Allahın dərk olunmasının subyekti və obyekti kimi yanaşırdı [Qasımov, 2002, s. 114]. Naxçıvanda böyüyüb, boya-başa çatmış Baba Nemətullah Naxçıvaninin bu dini, fəlsəfi təliminin ən görkəmli nümayəndələrindən biri olması bəhs edilən dövrdə bölgədə bu fəlsəfi cərəyanın inkişaf etdiyindən xəbər verir.

Səfəvilər dövründə təhsil sahəsində tələbələrə tədris edilən tibb, riyaziyyat, astronomiya da dövrün tanınmış elm sahələrindən idi. Dini elmlərlə yanaşı, Naxçıvan mədrəsələrində də bu fənlərin keçirilməsi xüsusi əhəmiyyət kəsb edirdi. Təsadüfi deyil ki, bu elmlər sahəsində bölgədən çıxan məşhur alimlər dövrün tanınmış elm xadimlərindən olmuşlar. Məsələn, İbrahim Naxçıvani tibb elmi sahəsində Dəməşq şəhərində təhsilini davam etdirmiş və bu şəhərin baş təbibi olmuşdur. Zeynalabdin Naxçıvaninin oğlu Məhəmmədbağır Yəzdi dövrün məşhur riyaziyyatçı alimlərindən biri olmuş, yeni riyazi formullar və qanunlar kəşf etmişdir. O, riyaziyyat elmi sahəsində ərəb dilində "Üyunülhesab" ("Hesab mənbələri"), astronomiya elmi sahəsində məşhur "Mətaliül-ənvar" ("İşıqların do-

ğulan yeri") əsərlərini yazmışdır [Tərbiyət, 1987, s. 165]. Bunlar bəhs edilən dövrdə bölgə ərazisində dəqiq və təbiət elmlərinin təhsildə qazandığı uğurların ölkə sərhədlərini aşdığını göstərir.

XVI-XVIII əsrin əvvəllərində Naxçıvanda təhsil sisteminin əsas xüsusiyyətlərindən biri dini və dünyəvi komponentlərin qarşılıqlı əlaqədə və nisbətən tarazlaşdırılmış şəkildə mövcud olması idi. Təhsil müəssisələrinin strukturunda və tədris proqramlarında dini elmlər dominant mövqe tutsalar da, dünyəvi elm sahələrinin müəyyən elementləri bu sistemin ayrılmaz tərkib hissəsini təşkil etmişdir. Bu vəziyyət Naxçıvan təhsil mühitinin klassik İslam təhsil modelinə uyğun şəkildə fəaliyyətini göstərir.

Bəhs edilən dövrdə Naxçıvan bölgəsində elm və təhsilin inkişafında Səfəvilər dövlətinin iri inzibati, mədəni mərkəzləri olan Təbriz, Ərdəbil, İsfahan və s. kimi şəhərlərlə elmi əlaqələrin rolu böyük olmuşdur. Bu əlaqələr birbaşa institusional xarakter daşımamış, daha çox tələbələrin, müəllimlərin və alimlərin bu yerlərə elm, təhsil mübadiləsi əldə etmək üçün gediş-gəlişi vasitəsilə qurulmuş, bölgədə mövcud elmi ənənələrin zənginləşməsinə və yenilənməsinə xidmət etmişdir. Sözügedən elmi əlaqələr Naxçıvanın regional elmi proseslərdən kənarda qalmadığını, əksinə, ümumsəfəvi elmi məkanının tərkib hissəsi olduğunu göstərir. Qeyd edək ki, bu dövrdə Təbrizlə Naxçıvanın elmi əlaqələri daha sıx şəkildə davam etmişdir. Təbrizlə Naxçıvanın mədəni əlaqələrinin inkişafında bu şəhərlərin inzibati mərkəz olmalarının da böyük rolu olmuşdur. Belə ki, Təbrizin 1555-ci ilədək paytaxt olması, bundan sonra Səfəvilər dövlətinin süqutunadək bu dövlətin əsas inzibati vahidlərindən biri olan Azərbaycan bəylərbəyiliyinin mərkəzi olması, ən əsası isə Naxçıvanın XVII əsrin I yarısınadək Təbriz, yəni Azərbaycan bəylərbəyiliyinin tərkibində idarə olunması daha yaxın elmi, mədəni əlaqələrin yaranmasına yol açmışdır. Bəhs edilən dövrdə 47 mədrəsənin fəaliyyət göstərdiyi Təbrizlə Naxçıvanın elmi əlaqələrinin inkişafını Xacə Ətiq Ordubadi, Ziyayi Ordubadi və s. kimi görkəmli naxçıvanlı mütəfəkkirlərin öz yaradıcılıqlarının müəyyən hissəsini Təbriz şəhərində davam etdirmələri də əyani şəkildə göstərir [Əliyev, 2017, s. 64].

## NƏTİCƏ

Səfəvilər dövründə Naxçıvanda təhsil sisteminin inkişafı onun həm dini, həm də dünyəvi aspektlərini əhatə etmiş, yerli alimlərin və müdərrislərin fəaliyyəti ilə zənginləşmişdir. Mədrəsələrdə əsasən dini elmlərin tədrisi ilə yanaşı, tibb, fəlsəfə, ədəbiyyat, tarix, coğrafiya, riyaziyyat və təbiət elmləri də öyrədilmişdir. Naxçıvanın Təbriz, Ərdəbil, Qəzvin və İsfahan kimi regional elmi mərkəzlərlə əlaqələri onun bilik transferi və mədəni mübadilə baxımından əhəmiyyətini göstərir. Eyni zamanda, yerli mollalar, müdərrislər, elm adamları yalnız tədris prosesində deyil, həm də ictimai həyatda, dini mərasimlərdə və elmi müzakirələrdə mühüm rol oynamışlar. Bu tədqiqat nəticəsində Naxçıvanın XVI-XVIII əsrin əvvəllərində təhsil və elmi mühit baxımından yalnız ölkə səviyyəsində deyil, geniş mədəni-tarixi kontekstdə də əhəmiyyətli bir mərkəz olduğu aydın olur.

## ƏDƏBİYYAT

Əhməd, Ə. (2022). *Səfəvilər dövründə məktəblər*. Akademik Tarih ve Düşünce Dergisi, 9 (3), 688-710.

Əliyeva, N. (2015). *Orta əsrlərdə Azərbaycan alimlərinin elmi əlaqələri və tədris fəaliyyəti.* Bakı: Turxan.

Əliyev, İ. (2017). *XVI-XVIII əsrin əvvəllərində Naxçıvanın mədəni-iqtisadi əlaqələrinin inkişafında Təbriz şəhərinin rolu.* NDU Elmi əsərləri, İctimai elmlər seriyası, 2 (83), 63-67.

Əliyev, İ. (2014). *Naxçıvan bölgəsi Səfəvilər dövründə*. Bakı: Elm və təhsil.

Qasımov, X. (2002). *Azərbaycan mədəniyyəti (XVI-XVII əsrlər).* Bakı: Nurlan.

Qasımov, X. (2014). Azərbaycan və İslam mədəniyyəti (XV-XVII əsrlər). *Tarix və onun problemləri*, 1, 285-290.

Qasımov, X. (2008). *Orta əsrlərdə Azərbaycan mədəniyyəti*. Bakı: Aspoliqraf.

Məmmədov, R. (1973). Naxçıvan şəhərinin XVI-XVII əsrlər tarixindən. *Azərbaycan tarixinə dair materiallar,* VIII, 163-193. Azərb.SSR Elmlər Akademiyasının nəşriyyatı.

*Naxçıvan sancağının müfəssəl dəftəri.* (Araşdırma, qeyd və şərhlərin müəllifi t.e.n. H.Məmmədov. Tərcümə edənlər akademik Z. Bünyadov və t.e.n. H. Məmmədov.). (2001). Bakı: Elm.

*Naxçıvan tarixi* (1-ci cild). (2013). Əcəmi.

Nəcəf, Ə. (2018). Orta əsrlər Azərbaycanında təhsil anlayışı, strukturu, metodologiyası və tədris vasitələri (X-XVI əsrlər). *Azərbaycan məktəbi*, 2 (683), 107-123.

Nəsirov, E. (2011). *Orta əsrlərdə yaşamış azərbaycanlı alimlər.* Baki: Nurlar.

Tərbiyət, M. (1987). *Danişməndani-Azərbaycan (Azərbaycanın görkəmli elm, sənət adamları).* Azərnəşr.

Makdisi, G. (2009). *İslâmın klasik çağında ve Hıristiyan Batıda beşerî bilimler* (tercüme Hasan Tuncay Başoğlu). Klasik Yayınları.

Бартольд, В.В. (1963). *Сочинения* (2-й том, ч. 1). Изд-во Восточной литературы.

Олеарий, А. (1870). *Подробное описание путешествия Голштинского посольства в Московию и Персию в 1633, 1636 и 1639 годах* (пер. с нем. П. Барсова). Университетская типография.

Рахмани, А. (1981). *Азербайджан в конце XVI и в XVII веке (1590-1700 гг.).* Баку: Элм.

Усейнов, М., Бретаницкий, Л., Саламзаде, А. (1963). *История архитектуры Азербайджана.* Госстройиздат.

Zaryab, A. (1997). Education v. The madrasa in Shi'ite Persia. *Encyclopedia Iranica, 8* (2), 184-187 https://www.iranicaonline.org/articles/education-v-the-madrasa-in-shiite-persia/

*(AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 10.02.2026**
**Son variant 03.03.2026**